İşıqlı sabahlar üçün, parlaq bir gələcək üçün,
çiçəklənən millət üçün, səsi dünyaya yayılacaq bir
gənclik üçün, düşünərək yaşayanlar üçün, xoşbəxt bir
Ailə üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün,
həyat səhifələrimizi parlaq imza sahiblərinin
qələmi ilə yazmaq üçün

parlaq imzalar

Kitabın sahibi: _____

Oxu tarixi: _____

Ürək ver: ♡ ♡ ♡ ♡ ♡

YALNIZ SEVGİDƏN

VAHİD ƏZİZ

parlaq
İMZALAR

Baş redaktor: Amin ORUC

Korrektor: Turac ELDARQIZI

Tərtibatçı: Zülfi XƏLİLOV

Cildin illüstrasiyası: Büşra KAYGIN GAFAROV

Cildin dizaynı: Fariz EYVAZLI

Vahid Əziz
YALNIZ SEVGİDƏN

Bakı, “Parlaq İmzalar” Nəşriyyatı – 2026, 280 səh.

© Vahid Əziz / 2026
© Parlaq İmzalar MMC / 2026
Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

Parlaq İmzalar Nəşriyyatı | 163
Şeirə sarı | 1

www.parlaqimzalar.az
info@parlaqimzalar.az
/parlaqimzalar
0559697259 / 0559897259

Mətbəə: “AVE PRİNT” MMC
OKTYABR / 2026

Vahid Əziz 23 noyabr 1945-ci ildə Ermənistanın Dərələyəz mahalının Əzizbəyov rayonunun Əzizbəyov kəndində anadan olub.

Azərbaycan Politexnik İnstitutunu bitirdikdən sonra "Xəbər Mətbuat Agentliyi"ndə müxbir (1971-1976), Bakı şəhər Partiya Komitəsində təbliğat və təşviqat şöbəsində təlimatçı (1976-1982), Azərbaycan KP Mərkəzi Komitəsində təlimatçı, mətbuat bölməsinin müdiri (1982-1989), Azərbaycan Dövlət Mətbuat Komitəsində sədr müavini (1989-1991) vəzifələrində çalışıb.

Sonrakı illərdə Azərbaycan Yazıçılar Birliyi idarə heyətinin katibi (1991-1997), Bakı şəhər İcra hakimiyyətinin Reklam və Şəhər tərtibatı Departamentində "Reklamların Azərbaycan dilində yazılışına nəzarət bölməsi"nin müdiri olub.

Bədii yaradıcılığa 1967-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində çıxan şeiri ilə başlayıb. İlk şeirlər kitabı "Mən küləyi görürəm" 1969-cu ildə "Gənclik" nəşriyyatında çap olunub. Son illər 200-dən çox publisistik məqalə və müsahibələri dərc olunub. "Dözmək olmur" (1997) şeirlər kitabı oxucular tərəfindən böyük rəğbətlə qarşılanıb. 40-dan çox şeirinə musiqi bəstələnib.

24 may 2019-cu ildə Azərbaycan Respublikasının Xalq şairi fəxri adına layiq görülüb.

Əziz oxucular,
“Parlaq İmzalar” nəşriyyatı mənə, böyük bir səxavətlə, sizlərlə bir daha görüşmək imkanı yaratdı.
Nəşriyyat əməkdaşlarına minnətdaram və güman edirəm ki, diqqətinizə təqdim olunan şeirlərimin bəzilərinə biganə qalmazsınız.
Hər birinizə dərin sevgi və sayğıyla...

Vahid ƏZİZ
Xalq şairi

Mən də özümə sənət tapmışam
Kim şeir yazmaqla bəxtəvər olur

Ayrıldıq

Çəmənlərdən yolum düşdü min kərə,
Güllər vaxtsız solub-açdı, ayrıldıq,
İlk görüşdən nə gəldisə gözlərə –
Son günü də gözüyaşlı ayrıldıq.

Yoxa çıxdı: əridimi, uçdumu,
Səsdi, ruhdu, ulduzdumu, quşdumu?
Anlamadım: bilə-bilə, çaşdımı?
Yar danışdı ikibaşlı, ayrıldıq.

Bircə dəfə öpə bildim telindən,
Bircə dəfə "Can!" eşitdim dilindən,
Bir röyada tutacaqdım əlindən –
Çağırdılar; yuxum qaçdı, ayrıldıq.

Bu ümid də məni qoydu gümansız,
Vurub keçdi cəllad kimi amansız,
Dillər tökdüm, inanmadı imansız;
Baxıb gördüm qəlbi daşdı, ayrıldıq.

Təsbeh kimi çevirərəm illəri,
Yanağımda qurudaram selləri,
İnanmıram duvaq tutar telləri –
İkimiz də başıdaşlı ayrıldıq...

14.05.2015

Mənə yüz il ömür arzulamayın

Mənə Yüz il ömür arzulamayın –
Xəzan yarpağıtək qovmasın külək,
Gözlərim görsə də, ayağım-əlim
Əsalıq olanda dayansın ürək.

Mənə – "Yüz il yaşa" – deməsin dostlar,
Yerişim, gülüşüm, səsim itməsin,
Məndən cavan olan, gümrah olanlar
Çiynimdə Dünyadan köçüb – getməsin!

Mənə Yüz il ömür arzulamayın –
Bu qədər yaşayan hansı çiçəkdir?
Sən yaşda qalmırsa tay-tuşun, tayın,
Qurdnan qiyamətə qalmaq deməkdir!

Mənə elə ömür arzulayın ki,
Ölüncə ümmantək çağlaya bilim,
Qapı-pəncərəni öz evimdəki
Özüm açа bilim, bağlaya bilim.

Sağlıqlar deyəndə hərdən şənimə,
Nə özüm kövrəlim, nə sizə gülüm,
Tanrıdan bir ömür diləyin mənə;
Hər vaxt sevə bilim, sevilə bilim.

Taleyim sevgiylə baxsın üzümə,
Görsün; yad payına şərik deyiləm?
Gərək olmayanda özüm-özümə,
Deməli, heç kəsə gərək deyiləm!

Mənə Yüz il ömür arzulamayın;
Ləyaqət, təmiz ad atıb getməsin,
Dünyaya qalacaq malı Dünyanın –
Karvanın lənətə batıb getməsin;
Mənə Yüz il ömür arzulamayın...

14.06.2007

Sənin lə küsülü qala bilmirəm

Yalvara-yalvara arxanca gedib,
Biçarə qəlbimə gülübdür aləm,
Elə düşünmə ki, mənliyim itib –
Sənin lə küsülü qala bilmirəm.

Ümiddən danışma; onu üzmüşəm,
Zamandan soruşma; tamam bezmişəm,
Taledən küsmüşəm, bəxtdən küsmüşəm –
Sənin lə küsülü qala bilmirəm.

Söndür bu şamı da, çıraqsız qalım,
Qələmsiz, kitabsız, varaqsız qalım,
Lap bütün dünyaya maraqsız qalım –
Sənin lə küsülü qala bilmirəm.

Razıyam – sallanam dar ağacından,
Əl çəkəm zəliltək kor ağacından,
Qalaram yaşamaq ehtiyacımdan –
Sənlə küsülü qala bilmirəm.

Hardasan, yolumu haradan salım?
Hansı dərdin ağır, hansını alım?
Dağıt, viran elə, xaraba qalım –
Sənlə küsülü qala bilmirəm.

Sınmadım qalsam da hərdən ümidsiz,
Dəfn etdim özümü sübut – şahidsiz,
Sən ilham pərisi, mən Vahid ƏZİZ –
Sənlə küsülü qala bilmirəm...

15.06.2007

Bəhanə gəzirəm

Dəyişik salırlar pərvanələrlə,
Bəhanə gəzirəm yanıb-ölməyə,
Sənə zəng edirəm bəhanələrlə,
Bəhanə gəzirəm sizə gəlməyə.

Bəhanə gəzirəm sənsiz ahlara,
Günahkar gəzirəm tapıb-vuruşam,
Boylana-boylana uzaq yollara
Bəhanə gəzirəm səni soruşam.

Qayıdıb gəlmədin, harda qalmısan?
Sənsiz ümidlər də düşüb çətinə,
Təpədən-dırnağa sual olmusan,
Bəhanə gəzirəm "xəyanətinə".

Bəhanə gəzirəm dönüb küləyə,
Hər yoldan ötənlə danışıb-güləm,
Bəhanə gəzirəm çıxıb getməyə,
Bəhanə gəzirəm qayıdıb gələm.

Bəhanə gəzirəm unudam səni,
Bəhanə gəzirəm yaddan çıxaram,
Bəhanə gəzirəm şəkillərini
Hirslənib atdığım oddan çıxaram...

15.05.2005

Neynəyəcəksən?

Hələ ki rüzgarsan sevgimdən bezən –
Tale yetirəndə, neynəyəcəksən?
Qeyz ilə yanından kənar edirsən –
Qalsam xatirəndə, neynəyəcəksən?

Bilirdin sənənəm – gəldin, götürdün,
Göyərtdin, soldurdun, biçdin, bitirdin,
İncitdin, kövrəltdin, tapdın, itirdin –
Tamam itirəndə, neynəyəcəksən?

Daha nə limanam, nə də sahilin,
Nə isti odunam, nə donan külün,
Dəli təkəbbürün səninlə, gülüm,
Yola getməyəndə, neynəyəcəksən?

Hələ də bilmirəm – niyə sevirəm?
Bəlkə, dəliyəm ki, əl çəkəmmirəm?
Tutaq, mən yetmədim kama, cəhənnəm!
Özün yetməyəndə, neynəyəcəksən?

Nə fərqi, nə sanıb ram oldum sənə,
Hələ də saçların yatmır sinəmə,
Alovlu-çovğunlu bu cəhənnəmə
Pənah gətirəndə, neynəyəcəksən?..

26.04.2018

Əgər ayrılmağa meylin vardısa

Getmək istəyirsən – bəhanəsiz get.
Nüsrət Kəsəmənli

Əgər ayrılmağa meylin vardısa –
Sıxılma, çəkinmə... gəl salım yola!
Get, səni ömrümdən qəlbin alırsa,
Qaldın nə oldu ki, getsən nə ola?

Daha ürəyimi çarmıxa çəkmə,
Daha qaş qaralır, yığış, gecikmə,
Ölən pöhrələri diriltmə mənə,
Soldun nə oldu ki, bitsən nə ola?

Təkcə mən deyiləm tapıb-itirən,
Qismət gətirdiyin – yanlış gətirən,
Onsuz da var-dövlət, sərvət sevmirəm;
Tapdım nə oldu ki, itsən nə ola?

Xatirə qalmağın bəsimdir, yetər,
Yanımda solmağın hicrandan betər,
Dönmərəm, lap izlə üfüqə qədər;
Qısqandın nə oldu, güdsən nə ola?

Ərimiş şam kimi yanmaram yenə,
Bənzəsin sevgimiz uğursuz günə,
Bir yol etməyinlə nə oldu mənə,
Yenidən bəxtəvər etsən nə ola?..

19.06.2019

Oyun

Bu oyunu uydurmuşdun sən özün,
Mən qaçırdım; sən qovurdun, qovurdun,
İndi alış; bu – alovun, bu – közün,
Ürəyimi həsrətində qovurdun.

Bir kölgəsiz ayna idim – sınmışam,
Bir ləkəsiz damla idim – donmuşam,
Hönkürmüşəm, gözlərimi yummuşam,
Hardan bilim? Bəlkə, birdən çağırdın.

Mən nə deyim bu küləyə, bu mehə,
Gözlərimdən çəkilməyən bu şehə?
Sənə görə inanmıram talehə –
Ümidimi nə yaşatdın, nə qırdın.

İndi düşüb oba-oba gəzirsən,
Şübhələri qova-qova gəzirsən,
Nahaq qaçıb yuva-yuva gəzirsən –
Özün məni yad qoynuna uçurtdun...

1969, Tərtər